AZƏRBAYCAN RESPUBLİKASI DAXİLİ İŞLƏR NAZİRLİYİNİN ORQANI

# POLİS

www.pq.mia.gov.az

polisazerbaycan

4 may 2023-cü il
cümə axşamı

1933-cü ildən çıxır
№ 17 (3631)



100 il

**Daxili İşlər Nazirliyində işləmək, onun əməkdaşı, zabiti olmaq bir tərəfdən şərəflidir, ikinci tərəfdən də çox məsuliyyətli, əzab-əziyyətlidir. Bütün bunları bilirik, dövlət bunu məhz belə qiymətləndirir və xalqımızın əksəriyyəti də DİN-nin cəmiyyətimizdə, dövlətimizdə tutduğu görkəmli mövqeyini qiymətləndirir, bu orqana və onun əməkdaşlarına hörmət, ehtiram bəsləyir.**

*Heydər Əliyev,*
*ümummilli lider*

## Rəsmi xronika

***Mayın 3-də Şuşada ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfrans işə başlayıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edir.***

***Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlara kommunal xidmətlərdən istifadəyə görə maliyyə yardımı göstərilməsi haqqında Fərman imzalayıb.***

***Ölkəmizin rəhbəri Polşa Respublikasının Prezidenti Zati-aliləri cənab Andjey Dudaya Polşanın milli bayramı-Konstitusiya Günü münasibətilə təbrik məktubu ünvanlayıb.***

# AĞDAMA QAYIDIŞ ÜÇÜN QURUCULUQ İŞLƏRİ DAVAM ETDİRİLİR




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 2-də Ağdam rayonuna səfər ediblər.

Səfər zamanı dövlətimizin başçısı və xanımı "Azərişıq" ASC-nin Ağdam şəhərində Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin təməlqoyma mərasimində iştirak ediblər.

Rəqəmsal İdarəetmə Mərkəzi şəhərin müxtəlif təyinatlı infrastrukturunun elektrik enerjisinə tələbatını ödəməklə yanaşı, təchizat sxeminə daxil olan şəbəkələrin real vaxt rejimində və rəqəmsal formatda idarə olunmasını təmin edəcək ki, bununla da ətraf ərazilərin də elektrik enerjisi ilə təchizatının etibarlılığına və dayanıqlılığına nəzarət təmin olunacağı bildirilib.

Daha sonra Prezident və xanımı Ağdam Muğam Mərkəzinin təməlqoyma mərasimində də iştirak ediblər.

Qeyd edək ki, muğamın təbliği və inkişafı istiqamətində dövlətimiz tərəfindən son illərdə görülən mühüm işlərə Heydər Əliyev Fondu da layiqli töhfələr verir. Birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Fondun həyata keçirdiyi layihələrin nəticəsidir ki, 2003-cü ildə UNESCO həm milli, həm də bəşər mədəniyyəti üçün Azərbaycan muğamının bədii dəyərini etiraf etdi. Muğam UNESCO-nun "Bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərləri" siyahısına salınıb. Son illərdə muğam müsabiqələrinin keçirilməsi bu əvəzsiz sənət incisinin yaşadılması istiqamətində mühüm hadisə kimi tarixə düşüb.

Azərbaycan milli musiqi mədəniyyətinə görkəmli muğam ifaçıları bəxş etmiş Ağdam rayonunda Muğam Mərkəzinin inşası işğaldan azad olunmuş ərazilərimizdə digər sahələr kimi, mədəniyyətin də sürətlə dirçəldilməsi istiqamətində ardıcıl işlərin görüldüyünün bir daha göstəricisidir.

Elə həmin gün Prezident və xanımı Ağdam şəhərində salınacaq 2-ci, 3-cü yaşayış məhəllələrinin və inzibati binanın təməlinin qoyulması mərasimində də iştirak ediblər.

Ümumi sahəsi 14 hektara yaxın olan 2-ci yaşayış məhəlləsinin ərazisinin böyük bir hissəsinin yaşıllıq zonasından ibarət olacağı, Məhəllənin Ağdamın mərkəzi küçəsində, şəhərin təsdiq edilmiş ümumi Baş planına uyğun salınacağı bildirilib. Bu məhəllədə tikiləcək yaşayış binalarında ümumilikdə 1268 mənzil olacaq. Mənzillərdən 114-nün birotaqlı, 464-nün ikiotaqlı, 536-nın üçotaqlı, 154-nün isə dördotaqlı olması planlaşdırılır.

Ümumi sahəsi 17 hektara yaxın olan 3-cü yaşayış məhəlləsinin də salınacağı ərazinin bir hissəsi çoxfunksiyalı zonanı əhatə edir və bu hissələrdə əhalinin sıxlığı azdır. Bu məhəllədə tikiləcək yaşayış binalarında ümumi sahəsi 120 min kvadratmetr təşkil edən 1239, o cümlədən 25 birotaqlı, 396 ikiotaqlı, 533 üçotaqlı, 285 dördotaqlı mənzil olacaq.

Səfər zamanı ölkə başçımız Bərdə-Ağdam dəmir yolu xəttinin tikintisi ilə tanış olub.

Qeyd olunub ki, dəmir yolu xəttinin layihələndirilməsi işləri 90 faiz yerinə yetirilib, Ağdam vağzalının təməli qoyulub. Həmçinin Bərdə və Ağdam mənzillərində 3 platforma, həmin platformalar üçün əlavə yolun və iki yoldəyişənin layihələndirilməsi nəzərdə tutulur. Dəmir yolu xəttinin 32,8 kilometrlik hissəsində relslər quraşdırılıb. Həmçinin torpaq işləri, mühəndis qurğularının tikintisi, yolun üst quruluş elementlərinin və yoldəyişənlərin quraşdırılması birinci mərhələ üzrə tam başa çatdırılıb. Hazırda 45-ci və 47-ci kilometrlərarası ərazidə üst quruluş elementlərinin quraşdırılması və Ağdam stansiyasının 6-cı yolunun torpaq işləri davam etdirilir.

## VƏTƏNDAŞ QƏBULU

Salyan, Şirvan, Hacıqabul, Kürdəmir



***Azərbaycan Respublikasının daxili işlər naziri, general-polkovnik cənab Vilayət Eyvazov tərəfindən cari il may ayının 18-də Salyan Rayon Polis Şöbəsinin inzibati binasında Hacıqabul, Kürdəmir, Salyan və Şirvan şəhər və rayonlarının sakinlərinin qəbulu keçiriləcək.***

***Qəbula yazılmaq istəyən vətəndaşlar Daxili İşlər Nazirliyinin səlahiyyətlərinə aid məsələlərlə bağlı 17.05.2023-cü il tarixədək yaşadıqları ərazinin polis orqanına, habelə DİN-in mia.gov.az internet saytı vasitəsilə və sosial şəbəkələrdəki səhifələrinə müraciət edə bilərlər.***

***Qəbula gələnlərdən şəxsiyyət vəsiqəsi tələb olunur.***

**Otuzillik işğal onlara (Ermənistan) heç bir üstünlük vermədi. Əksinə, onlar regional inkişaf proseslərindən təcrid edildilər. Onlar rəsmən, lakin faktiki surətdə həqiqətən də müstəqil ölkə olmaq şansını itirdilər.**

**Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev mayın 3-də Şuşada keçirilən "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda konfransda ABŞ-ın Prinston Universitetindən olan Maykl Reynoldsun sualına cavabında söyləyib.**

**"Onlar indi özlərinə yeni ağa və ya ağalar axtarırlar. Lakin tarix onlara dərs verməlidir. Ümid edirik ki, onlar bunu başa düşəcəklər", - deyən dövlətimizin başçısı qeyd edib ki, erməni həmkarı ilə danışıqlarında sülh sazişinin, ilk növbədə, onların marağına xidmət etdiyini izah etməyə çalışdığını vurğulayıb.**

**Prezident İlham Əliyev, həmçinin diqqətə çatdırıb ki, sülh sazişi haqqında danışıqların başlanılmasını təklif edən də Azərbaycan olub.**

## Narkotiklərlə mübarizədə uğurlu əməliyyat



İran İslam Respublikasından birbaşa olaraq milli genefondumuzun məhv edilməsi məqsədi ilə göndərilən külli miqdarda narkotik vasitələrin ölkə ərazisində qanunsuz dövriyyəyə buraxılmasının qarşısı növbəti dəfə Daxili İşlər Nazirliyi tərəfindən qətiyyətlə alınıb.

Nazirliyin Baş Narkotiklərlə Mübarizə İdarəsinin əməkdaşlarının daxil olmuş əməliyyat məlumatı əsasında Qaradağ rayonu ərazisində həyata keçirdikləri tədbir nəticəsində paytaxt sakinləri Rövşən Zamanov və Röyal Baloğlanov saxlanılıblar.

Onların avtomobilinə və yaşadıqları evlərə baxış zamanı hər iki şəxsə məxsus 112 kiloqram, o cümlədən 30 kiloqram heroin, tərkibi psixotrop maddələrlə zənginləşdirilərək yüksək təsiredici xassəyə malik olan 52 kiloqram qurudulmuş marixuana, 30 kiloqram metamfetamin və narkotiklərin satışında istifadə etdikləri 2 ədəd elektron tərəzi aşkar edilərək götürülüb.

Rövşən Zamanov və Röyal Baloğlanov narkotik vasitələri İran vətəndaşı "Hadı" adı şəxsin vasitəsilə sərhədyanı bölgədə yerləşən İmişli rayonu ərazisində gizlədilən yerdən Bakı şəhərində müxtəlif ünvanlara çatdırıb pul qazanmaq məqsədilə əldə etdiklərini bildiriblər.

Sonuncu əməliyyat zamanı İrandan Azərbaycana narkotik vasitələri qeyri-leqal yollarla göndərən kanallardan daha birinə güclü zərbə endirilib.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddəsi ilə cinayət işi başlanılıb, hər 2 şəxs barəsində həbs qətimkan tədbiri seçilib, əməliyyat tədbirləri davam etdirilir.

# BİR ƏSRƏ SIĞMAYAN ÖNDƏR ÖMRÜ

## *Sumqayıtda ümummilli liderin anadan olmasının 100-cü ildönümü münasibəti ilə tədbirlər keçirilib*

**Sumqayıt Şəhər Polis İdarəsində ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunan tədbir keçirilib. Tədbir iştirakçıları əvvəlcə şəhər ərazisində ulu öndərin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər.**



Polis İdarəsinin inzibati binasında davam edən tədbirdə ulu öndər Heydər Əliyevin, Azərbaycanın suverenliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.



**Tədbiri giriş sözü ilə İdarə rəisi, polis polkovniki Fəqan Azadəliyev açıb.** Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edildiyini deyən polis rəisi xalqımızın milli-mənəvi dəyərlərinin tanıdılmasında, ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında ulu öndərin müstəsna rol oynadığını, o cümlədən, müstəqilliyin möhkəmlənməsində mühüm xidmətləri olan daxili işlər orqanlarının fəaliyyətinin onun diqqət mərkəzində olduğunu bildirib.



Qeyd olunub ki, Heydər Əliyevin Azərbaycanın işıqlı gələcəyinin qarantı olan siyasi kursunu uğurla inkişaf etdirən dövlət başçımız cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz tarixinin ən qüdrətli dövrünü yaşayır, yeni zəfərlərə doğru inamla irəliləyir.

**Tədbirdə çıxış edən Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutunun Azərbaycanın yeni tarixi şöbəsinin müdiri Hacı Həsənov** isə azadlıq, müstəqillik yollarında bütün çətinliklərə mərdliklə sinə gərmiş mübariz Azərbaycan xalqının Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı tarixinin yeni parlaq səhifələrini yazmağa indi də davam etdiyini, 44 günlük Vətən müharibəsindəki zəfərimizin Azərbaycana bölgədə söz sahibi olması üçün yeni imkanlar yaratdığını diqqətə çatdırıb. O, ümummilli lider Heydər Əliyevin müstəqilliyimizin, Prezident İlham Əliyevin isə torpaqlarımızın xilaskarı kimi adlarını tarixə qızıl hərflərlə yazdığını vurğulayıb.

**Digər çıxışçı Sumqayıt Şəhər Polis İdarəsinin əməkdaşı, polis mayoru Asəm Eyvazov** ulu öndərin gənclərə göstərdiyi diqqət və qayğıdan danışıb, onun müəyyənləşdirdiyi gənclər siyasətinin bu gün Prezident İlham Əliyev tərəfindən də uğurla davam etdirildiyini və bunun daxili işlər orqanlarında da prioritet istiqamətlərdən biri olduğunu deyib.

Sonra ümummilli liderin həyat və fəaliyyətindən bəhs edən film nümayiş olunub.

Tədbir Sumqayıtda Dənizkənarı bulvar ərazisində ağacəkmə aksiyası ilə davam edib. İdarənin şəxsi heyəti tərəfindən 100 ədəd Eldar şamı əkilib, ərazidə olan bitkilərə qulluq göstərilib, yaşıllıq zonasında təmizlik işləri aparılıb.

*Anar Qafarov,*
*polis mayoru*

# HƏYAT ƏHƏMİYYƏTLİ təşəbbüs

**Hər bir humanist aksiyada daxili işlər orqanlarının əməkdaşları fəal iştirak edirlər. Həyat Əhəmiyyətli Obyektlərin Mühafizəsi üzrə Polis Alayının əməkdaşları da ənənəvi olaraq keçirilən "Qan ver, yaşat!" aksiyasına qoşulublar.**





Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə keçirilən aksiyada Alayın 62 əməkdaşı könüllü iştirak edərək qan verib. Elmi-Tədqiqat Hemotologiya və Transfiziologiya İnstitutunun xüsusi tibb briqadasının həkim-hemotoloqları donor polis əməkdaşlarının sağlamlığını öncədən müayinə edib, onlardan qan analizi götürüblər.

Aksiyada iştirak edən polislər qan xəstəliklərindən əziyyət çəkənlər üçün könüllü qan verməyin xeyirxah əməl olduğunu bildiriblər. Onlar, qana ehtiyacı olan insanların köməyinə çatmaq üçün bu nəcib təşəbbüsdə yaxından iştirak etməyin həm də vətəndaşlıq borcu olduğunu vurğulayıblar.

Qeyd edək ki, yığılan qan ehtiyatı yoxlanılaraq talassemiya, hemofiliya və digər qan xəstəliklərindən əziyyət çəkənlərin müalicəsində istifadə olunacaq.

*"Polis"*

# Bizə yazırlar...



**Pakistan vətəndaşı Xuşnam Əli** DİN rəhbərliyinə ünvanladığı təşəkkür məktubunda Azərbaycanda olarkən üzləşdiyi problemlə bağlı Binəqədi RPİ 5-ci Polis Bölməsinə müraciət etdiyini və ona köməklik göstərildiyini yazır.

**Paytaxt sakini Yusif Yusifov** avtomobilindən içərisində 308 manatının olduğu əl çantasının oğurlanması ilə bağlı müraciətinə operativ baxılaraq hadisəni törədənin tez bir zamanda tapılmasına və ona dəyən ziyanın ödətdirilməsinə görə Sumqayıt RPİ 4-cü Polis Bölməsinin əməkdaşlarına təşəkkürünü bildirir.

**Sumqayıt şəhər sakini Kəmalə Qarayeva** da itirdiyi telefonunun tez bir zamanda tapılmasında göstərdikləri köməkliyə görə Sumqayıt RPİ 4-cü Polis Bölməsinin əməkdaşlarına təşəkkürünü bildirir.

**Bakı şəhər sakini Anar Həmidov** isə şikayətinə operativ və obyektiv şəkildə baxılaraq hüquqlarının qorunmasında ona göstərdikləri köməkliyə görə Azərbaycan Polisinə təşəkkürünü bildirir.

**"Bakunews.az" saytının baş redaktoru Mirkənan Seyidov** mobil telefonunu itirməsi ilə bağlı "102" Xidməti-zəng Mərkəzinə müraciət etdiyi zaman polisin operativliyinin şahidi olduğunu yazır. Yazır ki, telefonu Binəqədi RPİ 6-cı Polis Bölməsinin əməkdaşları tərəfindən bir saat ərzində tapılaraq ona təhvil verilib.

İctimai asayişin qorunmasında, cinayətkarlıqla mübarizədə Azərbaycan Polisinin gərgin xidmət fəaliyyətini təqdir edən **Əli Əhmədov** polisin narkomaniyaya qarşı qətiyyətli mübarizə tədbirlərini də yüksək qiymətləndirir.

**Vətəndaş Südabə Mehdiyeva** evində baş vermiş oğurluq faktı ilə bağlı müraciətinə operativ baxılaraq hadisənin üstünün "isti izlər"lə açılmasında göstərdikləri köməkliyə görə Abşeron Rayon Polis İdarəsinin əməkdaşlarına təşəkkürünü ifadə edir.

*A.Nəcəfova*

# XXI ƏSRİN MÜASİR KÖLƏLİYİ: İNSAN ALVERİ

***Bu günlərdə "XXI Əsrin Qadınları" İctimai Birliyi Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin maliyyə dəstəyi və Daxili İşlər Nazirliyinin təşkilatçılığı ilə "Müasir dünyada müasir kölələk" adlı layihə çərçivəsində Bakı şəhərindəki 15 saylı peşə liseyində tədbir həyata keçirib.***

"Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəyə dair 2020-2024-cü illər üçün Milli Fəaliyyət Planı"na uğun olaraq tədbirdə **DİN İnsan Alverinə qarşı Mübarizə Baş İdarəsinin Xüsusilə mühüm işlər üzrə baş əməliyyat müvəkkili, polis polkovnik-leytenantı Vamiq Nəməndzadə, Baş İdarənin əməkdaşı, polis leytenantı Kamil Abdullayev**, İnsan Alverinə Qarşı Mübarizə üzrə QHT Koalisiyasının və "XXI Əsrin Qadınları" İctimai Birliyinin sədri Mahirə Əmirhüseynova, liseyin müəllim və tələbələri iştirak edib.

Polis polkovnik-leytenantı V.Nəməndzadə insan alveri ilə mübarizədə görülən işlər haqqında geniş çıxış edərək insan alverinin yaratdığı problemləri, onun transmilli cinayət əməli olmasını diqqətə çatdırıb. İştirakçılara insan alverinin mahiyyəti, formaları, qurbanların müəyyən edilmə üsulları, potensial qurbanlara ilkin yardım və xidmətlər, "152 Qaynar xətt" və qurbanların müəyyən edilmə üsulları barədə ətraflı məlumat verilib.

Sonra Mahirə Əmirhüseynova bildirib ki, layihənin əsas məqsədi insan alveri qurbanlarının sosial-hüquqi müdafiəsinin həyata keçirilməsi ilə yanaşı, gəncləri və yeniyetmələri maarifləndirməklə bu istiqamətdə aparılan mübarizənin kəsərini daha da artırmaqdır.

Sonda tədbir iştirakçıları tələbələrin suallarını cavablandırıb.

*"Polis"*

# Polis Akademiyası birinci olub



Bu günlərdə DİN-in Polis Akademiyasında parkur idman növü üzrə yarış keçirilib.

Sözügedən yarışda 11 komandadan 88 idmançı əməkdaş iştirak edib.

Daxili Qoşunların Baş İdarəsi, Baş Dövlət Yol Polisi İdarəsi, Nəqliyyatda Baş Polis İdarəsi, Baş Mühafizə İdarəsi, Bakı Şəhər Baş Polis İdarəsi, Polis Akademiyası, Əlahiddə Çevik Polis Alayı, Sıravi və Kiçik Rəis Heyəti Hazırlayan Məktəb, Abşeron Rayon Polis İdarəsi, Sumqayıt Şəhər Polis İdarəsi, Diplomatik nümayəndəliklərin mühafizəsi üzrə əlahiddə polis taborunun komandalarının iştirakı ilə keçirilən yarışda Polis Akademiyası I, Daxili Qoşunların komandası II, Əlahiddə Çevik Polis Alayının Komandası isə III yerdə qərarlaşıb.

Fəxri yerləri tutmuş komandalar qiymətli hədiyyələrlə mükafatlandırılıb, DİN-in müvafiq dərəcəli fərman və diplomları ilə təltif ediliblər.

Qeyd edək ki, yarışın baş hakimi DİN İdman Cəmiyyətinin fiziki hazırlıq şöbəsinin rəisi, polis polkovnik-leytenantı Elnur Həsənov olub.

*Aytəkin Nəcəfova,*
*polis polkovnik-leytenantı*









# TƏDBİRLƏR ULU ÖNDƏRƏ HƏSR OLUNUB

**Ulu öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Göyçay Rayon Polis Şöbəsi əməkdaşları arasında Olimpiya İdman Kompleksində silahsız özünümüdafiə və əlbəyaxa döyüş üzrə yarış keçirilib.**

Əvvəlcə ümummilli liderin, eləcə də torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət Himni səsləndirilib.

**RPŞ-nin rəisi, polis polkovniki Müqalib Abdıyev** ölkəmizdə sabitliyin bərqərar olunmasında, cinayətkarlıqla mübarizədə və xalqımızın təhlükəsiz şəraitdə yaşamasında ulu öndər Heydər Əliyevin müstəsna xidmətlərindən danışıb.

Sonra yarışa start verilib. Müxtəlif çəki dərəcələrində 80 həmkarımız birincilik uğrunda mübarizə aparıb.

Qaliblər medallar və diplomlarla mükafatlandırılıblar.

Ümummilli liderin 100 illik yubileyinə həsr olunmuş tədbir ağacəkmə aksiyası ilə davam etdirilib. Rayon ərazisində iqlim şəraitinə uyğun 200 zeytun ağacı əkilərək suvarılıb və onlara aqrotexniki qulluq göstərilib.

**Masallı Rayon Polis Şöbəsində "Ümummilli lider Heydər Əliyev – tarix yaradan şəxsiyyət" mövzusunda tədbir keçirilib.**



Əvvəlcə şəxsi heyət rayon ərazisindəki ulu öndərin abidəsini ziyarət edib, önünə güllər düzüblər.

**Sonra RPŞ-nin rəisi, polis polkovniki Azay Ağayev** çıxışında öz həyatını doğma xalqına həsr edən ümummilli liderin Azərbaycan dövləti və xalqı qarşısındakı tarixi xidmətlərindən, onun siyasi təcrübəsi və uzaqgörənliyi sayəsində ölkəmizin beynəlxalq müstəvidə qazandığı uğurlardan, ölkədə əldə olunan ictimai-siyasi sabitlikdən danışıb. Qeyd olunub ki, müstəqil Azərbaycanın qurucusu və memarı olan Heydər Əliyev məktəbinin öyrənilməsi, gələcək nəsillərə çatdırılması olduqca vacibdir.

**Qax rayonunda da Rayon Polis Şöbəsinin təşkilatçılığı ilə ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş tədbir keçirilib.**

Ulu öndərin abidəsi ziyarət olunduqdan sonra Heydər Əliyev Mərkəzində davam edən tədbirdə çıxış edən **RPŞ-nin rəisi, polis polkovniki Vidadi Qurbanov** Heydər Əliyevin şərəfli və mənalı ömür yolundan, zəngin dövlətçilik təcrübəsindən, Azərbaycan xalqı qarşısındakı misilsiz xidmətlərindən söz açıb. Şöbə rəisi məhz ulu öndərin səyləri nəticəsində insan amilinə yüksək dəyər verən hüquq sisteminin, yerli qanunvericilik bazasının təkmilləşdirildiyini vurğulayıb.

Sonda ümummilli lider Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən film nümayiş olunub.

# O, siyasi novatordur




**Xətai Rayon Polis İdarəsində ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü il dönümünə həsr olunmuş tədbir keçirilib.**

Tədbirdə RPİ-nin rəisi, polis polkovniki Vaqif Müslümov, Bakı Dövlət Universitetinin tarix fakültəsinin dosenti Boran Əziz və şəxsi heyət iştirak edib.

Əvvəlcə rayon ərazisində ulu öndərin xatirəsinə ucaldılmış abidə ziyarət olunub, önünə tər güllər düzülüb.

İnzibati binanın akt zalında davam edən tədbirdə ümummilli lider Heydər Əliyevin, respublikanın ərazi bütövlüyü uğrunda şəhid olanların, eləcə də xidməti tapşırıqları yerinə yetirərkən həlak olmuş həmkarlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Mərasimi giriş sözü ilə açan İdarə rəisi Vaqif Müslümov ulu öndər Heydər Əliyevin rəhbərliyi altında hüquq mühafizə orqanlarının respublikada tüğyan edən mütəşəkkil cinayətkarlığa, sabitlik üçün təhlükə doğuran hallara qarşı uğurlu mübarizəyə başladığını, hər cür hüquqazidd əməllərin qarşısının qətiyyətlə alındığını bildirib. Qeyd olunub ki, bu gün Azərbaycan Polisi Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizdə sabitliyin, ictimai asayişin və təhlükəsizliyin təminatçısı kimi xalqın inam və etibarını qazanıb.

Dosent B.Əziz ümummilli liderin Azərbaycan dövlət və dövlətçilik tarixində, eyni zamanda iqtisadiyyat, hüquq mühafizə, ədəbiyyat, incəsənət, elm sahəsindəki xidmətlərindən və işgüzar fəaliyyətindən bəhs edib: "Onu tarix yox, o, tarixin özünü yaratdı",-deyən dosent müasir gənclik tərəfindən ulu öndərin siyasi irsinin daha dərindən öyrənilməsinin və gələcək nəsillərə ötürülməsinin vacibliyini xüsusi vurğulayıb.

# Həmkarlarımız polis veteranını təbrik edib

Polis veteranı Əli Məlikovun 90 yaşının tamam olması münasibətilə Sumqayıt Şəhər Polis İdarəsinin rəisi, polis polkovniki Fəqan Azadəliyev, şəxsi heyətlə iş üzrə böyük köməkçi, polis polkovnik-leytenantı Eldəniz Həsənov, Dövlət Yol Polis Şöbəsinin rəisi, polis polkovnik-leytenantı Şamxal Əliyev, veteranlar şurasının sədri Rostevan Əliyev, eləcə də idarənin əməkdaşları yubilyarı ziyarət edib, maddi və mənəvi dəstək göstəriblər.



**Polis polkovniki F.Azadəliyev 90 illik yubileyi münasibətilə Ə.Məlikova** təbriklərini çatdırıb, möhkəm cansağlığı arzulayıb. İdarə rəisi daxili işlər orqanlarının xidməti fəaliyyətinin təşkilində, cinayətkarlıqla mübarizədə, gənclərin maarifləndirilməsində, eləcə də vətənpərvər ruhda tərbiyə olunmasında veteranların zəngin təcrübəsinə hər zaman ehtiyac olduğunu vurğulayıb.

Sonra asayiş keşikçiləri üzərində polis starşınası uniformasında şəkili həkk olunmuş, xüsusi əl işi olan xalçanı yubilyara təqdim ediblər.

Görüşdən təsirləndiyini dilə gətirən veteran sabitliyin, əmin-amanlığın qorunması üçün gecəli-gündüzlü xidmət aparan polisin ictimai asayişin keşiyində mətin dayandığını, hüquqazidd əməllərin, cinayətkar qəsdlərin qarşısını qətiyyətlə aldığını görəndə fərəh hissi keçirdiyini deyib:

"Bu gün qalib ölkə kimi dünyanın diqqət mərkəzindəyik. Ölkəmizi ziyarət edənlərin sayı gündən-günə çoxalır. Bura gələnlər yaxşı bilirlər ki, vətəndaşlarımız kimi onların da təhlükəsizliyi etibarlı şəkildə qorunacaq".

Sonda yubilyar ona göstərilən yüksək diqqət və qayğıya görə DİN rəhbərliyinə təşəkkürünü bildirib.

Yeri gəlmişkən, milis starşınası Əli Məlikov 1956-cı ilin mart ayından 1983-cü ilin dekabr ayına qədər daxili işlər orqanlarında xidmət keçib. Xidmət müddətində 10, 15, 20 və 25 il nümunəvi xidmət, əmək veteranı və bir çox orden, medallarla, həmçinin "Milis əlaçı" döş nişanı ilə təltif olunub.

*T.Əlizadə*

# Gənclər yüngül atletika üzrə yarışıblar

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Sağlam bədəndə sağlam ruh" şüarı altında keçirilən, o cümlədən gənclərin Daxili İşlər Nazirliyi sistemində təhsilə, eləcə də xidmətə təşviq edilməsinə həvəsləndirilməsi məqsədilə idmanın yüngül atletika və turnikdə dartınma yarışları davam edir.



Xızı və Siyəzən rayonlarında yekunlaşan turnirlərdə ümumilikdə 100 gənc qüvvəsini sınayıb.

İştirakçılar proqramda müəyyən olunmuş hərəkətlər üzrə normativləri yerinə yetiriblər.

Qaliblər diplom, medal və qiymətli hədiyyələrlə mükafatlandırılıblar.

Yarışları İdman Cəmiyyətinin idman təşkili bölməsinin baş inspektoru, polis polkovnik-leytenantı Aydın Həşimov, fiziki hazırlıq şöbəsinin baş inspektoru, polis mayoru Elşən İbişov və Polis Akademiyasının idman kafedrasının baş müəllimi, polis baş leytenantı Məhəmməd Məmmədli idarə ediblər.

*Teymur Əlizadə,*
*polis mayoru*

# Təmsilçimiz uğur qazandı

Aprelin 30-da Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Abşeron Olimpiya İdman Kompleksində yeniyetmə, gənclər və böyüklər arasında kəndirlə mübarizə idman növü üzrə 1-ci ölkə kuboku keçirilib.

Yarışda DİN BMİ-nin Azərbaycan Televiziya və Radio verilişləri QSC-nin mühafizəsi üzrə şöbənin əməkdaşı, polis serjantı Roman Əhmədov gümüş medala sahib çıxıb.

*Ruslan Vəliyev,*
*polis baş leytenantı*



***Bir neçə gün öncə başa çatmış 7-ci Formula 1 Azərbaycan Qran-Prisində meksikalı pilot Serxio Peres Bakı şəhər halqasında ikinci, karyerasında isə altıncı qələbəsini qazandı. Ancaq bu yarışların komanda halında hər mövsüm bir qalibi də olur. Bu, Azərbaycan Polisidir.***





# Zəriflərin növbəti zəfəri

Daxili işlər orqanları mötəbər tədbirin təhlükəsizliyini ən yüksək səviyyədə təmin etməklə, tarix və beynəlxalq mahiyyətinə görə dünya qarşısında hər dəfə özünü təsdiq edir, necə deyərlər, sınaqlardan alını açıq çıxır.

Bu nailiyyətimizdə qadın polis əməkdaşlarının da haqqı danılmazdır.

Yarışların ikinci günü həmkarlarımızın fəaliyyətini birbaşa postlarda müşahidə etmək, haqqlarına şahidlik etmək üçün üz tutduq Bakı şəhər halqasına. Nəzarət-buraxılış postlarında əməkdaşlar xidmətə elə köklənmişdilər ki, cəmi bir neçə metr aralıda uğultu ilə şütüyən bolidlərin səsini ya eşitmir, ya da artıq bu səsə öyrəşmişdilər. Qran-prini izləməyə gələn əcnəbilərin və şəhər sakinlərinin çantaları bir-bir yoxlanılır, üstləri xüsusi detektorla aranır, bundan sonra yarışın keçirildiyi əraziyə buraxılırdılar. Bir sözlə, "kişi və qadın polislər çiyin-çiyinə xidmət edir" sözü tam mənası ilə məhz bu postlarda özünü əks etdirirdi.

Ölkəmizdə keçirilən hər Formula 1 yarışında qadın polislərin qrup rəhbəri olan DİN Səfərbərlik və Mülki Müdafiə İdarəsinin katibliyinin rəisi, polis polkovnik-leytenantı Nailə Teliyeva deyir ki, qadın əməkdaşlar öz işlərinin öhdəsindən layiqincə gəlirlər.

Onun sözlərinə görə, xidmətə cəlb edilənlər Baş Əməliyyat və Statistik İnformasiya İdarəsi, Tibb İdarəsi, Nəqliyyatda Baş Polis İdarəsi, Bakı şəhər BPİ, Əlahiddə Çevik Polis Alayı və Daxili Qoşunların təcrübəli qadın əməkdaşlarının arasından seçilirlər: "Əlahiddə Çevik Polis Alayında keçirilən iclasda əməkdaşlar seçilib yerləri, gecə-gündüz növbələri müəyyən ediləndən sonra xidmətə başlayırıq. Yarışa bir gün qalmış gecə növbəsindən etibarən qadın əməkdaşlar postlara çıxmışdılar".

Uzunluğu təxminən 6 kilometr olan Bakı Şəhər Halqasına çatmaq üçün quraşdırılan 12 piyada, 8 nəqliyyat nəzarət-buraxılış postunun hamısında qadın əməkdaşların xidmətə cəlb edildiyini öyrənirik. Bundan əlavə, xüsusi monitorların quraşdıldığı otaqdan bütün nəzarət buraxılış postlarına, giriş-çıxışlara, yoxlanışlara kameralarla birbaşa nəzarət də xanımlara həvalə olunmuşdu.

N.Teliyeva əlavə edir ki, hər bir posta mütləq şəkildə ingilis və rus dillərini mükəmməl bilən bir əməkdaş təhkim olunur. Gələn turistlər bəzən öz yerlərini soruşur, biletlərini göstərirlər, hansı zonaya getməli olduqlarını öyrənməyə çalışırlar. Bu zaman əməkdaşlarımız onlara asanlıqla yardımçı olurlar.

Paytaxtdakı polis idarələrindən xidmətə cəlb edilən qadın əməkdaşların qrup rəhbəri, Bakı şəhər BPİ İcTİ-nin baş inspektoru, polis polkovnik-leytenantı Kəmalə Ələkbərova qadın əməkdaşların hansı kriteriyalar əsasında seçildiyinə aydınlıq gətirdi. O, deyir ki, kütləvi tədbirlər zamanı seçim apararkən öncə təcrübəli əməkdaşlara, ötən illərdə tədbirlərə cəlb edilənlərə üstünlük verilir. Yeni təyin olunan gənc kadrlar isə təcrübəsi olanlarla eyni postlara təyin olunmaqla, növbəti tədbirlər üçün də təcrübəli əməkdaşlar hazırlanır. İkinci halda isə, müvafiq xidmət sahəsinə aid olanlara, yerli vətəndaşlar və əcnəbilərlə, turistlərlə ünsiyyət qura bilən qadınlara üstünlük verilir.



Yarışlar bitəndən sonra polis polkovnik-leytenantı N.Teliyeva ilə bir də telefonla əlaqə saxlayıb xidmətin yekunu ilə maraqlananda, xidmətlərini nöqsansız, uğurla başa vurduqlarını söylədi. Bu, həm də o demək idi ki, zəriflər növbəti zəfərlərini qazanmışdılar.

*Rəşad Mehtiyev*

## AZƏRBAYCAN RESPUBLİKASININ DAXİLİ İŞLƏR NAZİRLİYİ

# Polis orqanlarında orta rəis heyəti vəzifələrinə xidmətə qəbulla əlaqədar müsabiqə elan edir

Respublikanın şəhər, rayon polis orqanlarında /Naxçıvan Muxtar Respublikası, Bakı, Sumqayıt şəhərləri və Abşeron rayonu istisna olmaqla/ polis sahə rəisi vəzifələrinə xidmətə qəbul ilə əlaqədar müsabiqə keçirilir.

Cəmi 50 vəzifənin komplektləşdirilməsi ilə əlaqədar keçirilən müsabiqə test imtahanından və müsahibədən ibarətdir.

Test imtahanı – "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"nin tələblərinə cavab verən namizədlərlə qanunvericilik aktları və nəzəri bilik sahələri üzrə test imtahanının proqramı, eləcə də məntiqi nəticə çıxarmaq qabiliyyətini əhatə edən suallar əsasında aparılır.

Test imtahanından müvəffəqiyyətlə keçmiş iştirakçıların xidməti vəzifələrini yerinə yetirən zaman qanunvericilik aktlarını tətbiq etmək üçün bilik və bacarığı, ünsiyyət yaratmaq, özünü təqdimetmə bacarığı, təmkinliyi, fikir və rəyini ifadə etmək qabiliyyəti kimi xüsusiyyətləri Daxili İşlər Nazirliyinin Mərkəzi Müsabiqə Komissiyası tərəfindən keçirilən müsahibə zamanı qiymətləndirilir.

Müsabiqədə Azərbaycan Respublikasının dövlət ali təhsil müəssisələrində hüquqşünas ixtisası üzrə təhsil almış, yaşı 28-dək olan, həqiqi hərbi xidmət müddətini tam başa vurmuş, əvvəllər özü və yaxın qohumları məhkum olunmamış (ehtiyatsızlıqdan böyük ictimai təhlükə törətməyən cinayətlərə görə məhkum olunmuş yaxın qohumlar istisna olmaqla) "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmət keçmə haqqında Əsasnamə"də müəyyən olunmuş şərtlərə cavab verən Azərbaycan Respublikasının kişi cinsli vətəndaşları (daxili işlər və digər hüquq mühafizə orqanlarında zabit vəzifələrindən xaric edilmiş şəxslər istisna olmaqla) iştirak edə bilərlər.

### Müsabiqənin test imtahanının proqramı

Azərbaycan Respublikasının Konstitusiyası, Dövlət və hüquq nəzəriyyəsi, Cinayət hüququ, Cinayət prosesi, İnzibati hüquq, Kriminalogiyanın əsasları, BMT-nin «İnsan hüquqları haqqında» Ümumi Bəyannaməsi, «Polis haqqında» Azərbaycan Respublikasının Qanunu, «Əməliyyat-axtarış fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu.

Müsabiqə qaliblərinin təyinatlarından sonra onların xidməti iş yerləri Daxili İşlər Nazirliyinin Bakı, Sumqayıt şəhərlərində və Abşeron rayonunda yerləşən polis orqanlarına 5 il müddətində dəyişdirilməyəcəkdir.

Müsabiqədə iştirak etmək istəyən şəxslər 2023-cü il may ayının 02 - dən iyun ayının 02 - dək **http://www.mia.gov.az** ünvanda yerləşdirilmiş elektron ərizə formasını və qısa anket məlumatlarını şəxsən dolduraraq elektron poçt vasitəsi ilə **bki@mia.gov.az** ünvanına Daxili İşlər Nazirliyinin Baş Kadrlar İdarəsinə göndərməlidirlər.

Elektron ərizələr Daxili İşlər Nazirliyində qeydiyyatdan keçirilərək namizədlər barədə məlumatlar Baş Kadrlar İdarəsi tərəfindən öyrənildikdən sonra müvafiq qərar qəbul edilir.

Namizədlər məlumatlandırıldıqdan sonra aşağıdakı sənədləri şəxsən təqdim etməlidirlər:

***- şəxsiyyət vəsiqəsi;***

***- ali təhsil haqqında diplom;***

***- hərbi bilet;***

***- əmək kitabçası (olanlar üçün);***

Müsabiqədə iştirak edəcək şəxslərin sağlamlıq vəziyyəti və fiziki hazırlıq səviyyəsi daxili işlər orqanları əməkdaşları üçün müəyyən olunmuş normativlər üzrə yoxlanılır:

***Qaçış: 100 (yüz) metrə – 14 saniyə, 1000 (min) metrə – 3.40 dəqiqə;***

***Turnikdə dartınma:***

***- çəkisi 80 kiloqramadək - 12 dəfə,***

***- çəkisi 80 kiloqramdan yuxarı - 8 dəfə;***

***Qollar üzərində bədənin döşəmədən qaldırılıb-endirilməsi – 27 dəfə;***

***Arxası üstə uzanmış halda gövdənin döşəmədən qaldırılıb-endirilməsi – 27 dəfə.***

«Daxili işlər orqanlarında xidmətə qəbul olunmaq üçün namizədlərlə müsabiqənin keçirilməsi Qaydaları», test imtahanının proqramları və fiziki hazırlıq üzrə ödəniləcək normativlər Daxili İşlər Nazirliyinin **www.mia.gov.az** ünvanlı Veb saytında yerləşdirilmişdir.

**Əlavə məlumat almaq üçün əlaqə telefonları:**

**(012) 590-93-51; (012) 590-92-37; (012) 590-92-21; (012) 590-93-64; (012) 590-95-23.**

# Oğru "isti izlər"lə saxlanılıb

Sumqayıt ŞPİ-nin 3-cü Polis Bölməsi əməkdaşlarının "102" Xidməti-zəng Mərkəzindən daxil olmuş məlumat əsasında keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində şəhər ərazisində oğurluq hadisəsi törətməkdə şübhəli bilinən, əvvəllər oğurluq və narkotiklərə görə məhkum olunmuş A.Hüseynov şübhəli şəxs qismində saxlanılıb.



Bölmədən aldığımız məlumata görə, dindirilmə zamanı təqsirləndirilən şəxs oğurluq etdiyini etiraf edib. Belə ki, o 14 aprel saat təqribən 17:00 radələrində 7 saylı marşurut avtobusunda hərəkətdə olarkən bir qadının çantasının zəncirbəndinin açıq olmasını, sonra həmin qadına yaxınlaşaraq çantanın içərisində olan "Samsunq Galaxy A51" markalı mobil telefonu götürdüyünü qeyd edib. Həmçinin, telefonun qoruyucusunu açarkən altında 1 ədəd 50 manatlıq və 1 ədəd 20 manatlıq əskinasın olduğunu da aşkarlayıb. O, izahatında həmin pullara siqaret aldığını və digər alış-verişə xərclədiyini yazıb. Beləliklə, təqsirləndirilən şəxs zərərçəkmişə ümumilikdə 310 manat maddi ziyan vurub.

Araşdırma zamanı o da müəyyən olunub ki, hadisəni törətdikdən təqribən 40 dəqiqə sonra oğurladığı mobil telefona zəng vuran vətəndaş S.Abdullayevanın həyat yoldaşına telefonu təsadüfən tapdığını, "Ceyran" restoranının qarşısında görüşərək ona qaytaracağını desə də görüş yerinə getməyib.

Bölmə əməkdaşları tərəfindən zərərçəkmişə dəymiş maddi ziyan ödətdirilib.

Faktla bağlı Cinayət Məcəlləsinin müvafiq maddələrilə cinayət işi başlanılıb.

*Teymur Əlizadə, polis mayoru*

POLİS qəzetinin Kompüter Mərkəzində yığılıb səhifələnmiş və DİN-in Mətbəəsində çap edilmişdir.
Qəzet həftədə bir dəfə çıxır.
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır.
Qəzetdə gedən materiallardan istifadə edərkən redaksiyadan razılıq alınmalı və "Polis"ə istinad olunmalıdır.
REDAKTOR: HAFİZ TƏMİROV
Qeydiyyat № 4326. İndeks: 66993
Sayı 9860
Ünvanımız: Az 1005: Bakı şəh. "Azərbaycan" prospekti 7
Məlumat üçün telefonlar: 590-95-69; 590-99-55; 590-99-30
E-poçt: metbuat@mia.gov.az
Çapa imzalanmışdır 18:00
Qiyməti 40 qəpik